**AZƏRBAYCAN RESPUBLİKASI**

*əlyazması hüququnda*

# "GƏNCLƏRDƏ NARKOTİK ASILILIQ SOSİAL PROBLEM KİMİ (VAN ŞƏHƏRİNİN TİMSALINDA)"

İxtisas 6310.01 Sosial problemlər

Elm sahəsi: Sosiologiya

**ADİL MEHMED NUH oğlu YILMAYAN**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün dissertasiyanın

**AVTOREFERATI**

BAKI- 2021

Dissertasiya işi Bakı Dövlət Universitetinin Sosiologiya kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** **Abbasova Qızılgül Yasin qızı**
Fəlsəfə üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Qabil İsmixan oğlu Hüseynov**
Fəlsəfə üzrə elmlər doktoru, professor

**Nəzakət Əjdər qızı Salmanova**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent

**Osman Yusif oğlu Hacıyev**
Fəlsəfə üzrə fəlsəfə doktoru

Bakı Dövlət Universiteti nəzdində təşkil edilmiş BFD 4.04 Dissertasiya Şurası Dissertasiya Şurasının sədri:

Sosiologiya üzrə elmlər doktoru, professor
**Hüseyn Tapdıq oğlu Qaraşov**

Dissertasiya şurasının elmi katibi:

Sosiologiya üzrə fəlsəfə doktoru, dosent
**Səadət Davud qızı Məmmədova**

Elmi seminarın sədri:

Fəlsəfə üzrə elmlər doktoru, professor
**Qoşqar Cəlal oğlu Əliyev**

Dissertasiya işinin müdafiəsi 06 iyul 2021-ci il tarixində saat 11 $^{00}$ Bakı Dövlət Universiteti nəzdində təşkil edilmiş BFD 4.04 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1048, Bakı şəhəri, Zahid Xəlilov, 23

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Dissertasiya və onun avtoreferatının elektron versiyası Bakı Dövlət Universitetinin rəsmi saytında yerləşdirilmişdir

Avtoreferat "04" "iyun" 2021-ci il tarixində göndərilmişdir.

Çapa imzalanıb:
Kağızın formatı
Həcmi
Tiraj

# DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Problemin aktuallığı**. Narkotik maddələrdən istifadənin başlanğıcı çox qədim olub bəşəriyyətin yaranmasına təsadüf edir. Orta Şərqdə müxtəlif növdə spirtli içkilər istehsal edilmiş, 4 min il əvvəl isə çinlilər uzun çubuqlar vasitəsilə marixuanadan istifadə etmişlər. Qədim misirlilər tiryəkdən ağrının azaldılması, oturaq həyata keçdikləri andan etibarən isə insanlar dərman kimi müxtəlif maddələrdən istifadə etmişdirlər.

İbtidai insanlar eramızdan əvvəlki dövrlərdə təbiətdə mövcud olan müxtəlif növ bitkilərdən ağrıkəsici, sakitləşdirici olaraq faydalanmışlar. Dini mərasimlərdə, yığıncaqlarda və digər müxtəlif mərasimlərdə nəşə və bu kimi digər maddələrin istifadə edildiyi məlumdur. Narkotikin insana göstərdiyi enerjiverici və sakitləşdirici təsirlərindən faydalanmaq istəyən şəxslər narkotik maddələrin mənfi məqsədlər istiqamətində istifadəsinə daha çox üstünlük vermişdir. Xalqların sosial həyatı, mədəniyyəti ilə narkotikdən istifadə arasında əlaqə mövcuddur. Müxtəlif cəmiyyətlərdə fərqli psixotrop və narkotik maddələrlə əlaqədar olaraq *Submədəniyyətlər* formalaşmışdır. Bəzi narkotik maddələr insanda psixoloji asılılıq təsiri meydana gətirir, bəziləri isə psixoloji və fiziki olaraq insanı əsir edib məhrumiyyət hissi formalaşdırır. Daha sonra insanın ruhi və psixi sağlamlığını pozan maddələr insanı yaşayan ölü halına salır, cəmiyyətin sosial, iqtisadi və genetik məhsuldarlığına ziyan verir[1]. Dünyada ən çox istifadə olunan narkotik maddələr marixuana, tiryək, morfin, heroin, kokain və psixotrop maddələrdir və həmin maddələrdən asılılıq dünyanın bir sıra ölkəsində qorxunc fəlakət ölçüsündədir[2].

---

[1] Qadirova S., Məmmədova Z. "Narkomanıya insanın mənəviyyatını məhv edir, "canlı ölü"yə çevirir" // http://nmdk.gov.az; Sevil, H T. Uyuşturucu Bağımlılığı Tanımlar- Sorunlar- Çözümler. Türkiye-Ankara: Sabev Yayınları, 1998, s.15; Tuncer, A. Uyuşturucu veya Uyarıcı Madde Ticareti ve Kullanılmasına İlişkin Suçlar. Doktora Tezi. Türkiye, 2011, s.5

[2] The Poppy For Good And Evil. National Geographic. Vol. 167. No: 2. February 1985. p. 143-189

Bütün dünyada, xüsusilə inkişaf etmiş ölkələrdə narkotiklərdən istifadə və asılılıq mühüm xalq sağlamlığı mövqeyində çıxış edir. ABŞ-da hər 10 nəfərdən biri bu və ya digər narkotik maddədən istifadə edir[1]. Dərmanlardan irrasional şəkildə (lazımsız) istifadə olunması inkişafda olan ölkələrdə problem halını almışdır. Getdikcə çətinləşən və dəyişən həyat şəraiti, işsizlik, rəqabət və s. insanların adaptasiya şərtlərini çətinləşdirir və bir növ *reallıqdan qaçmaqla* bərabər alkoqol və narkotik kimi maddələrin qabardılmış və ehtiraslı istifadəsini, yəni psixoloji və fiziki asılılığı gündəmə gətirir. Narkotikdən istifadə edən şəxslər öhdəsindən gələ bilmədikləri bu problemlə mübarizə aparmaq əvəzinə təxirə salma və ya müvəqqəti qaçışlara üstünlük verirlər. *Dərmanlarda* isə, səhiyyə xidmətlərinin əlçatarlılığı, ictimai dəyərlər, ənənələr və qanunlar cəmiyyətə təsir göstərərək insanların dərmandan istifadəyə qarşı mövqe və davranışlarını formalaşdırmaqda rol alır[2].

Psixoaktiv maddələrdən istifadə əsasən siqaretlə başlayır və bir müddət sonra digər maddələrdən istifadəyə keçid alınması diqqətdən yayınmır. Xüsusilə alkoqoldan istifadə olunmasına siqaretin təsir göstərdiyi sübut olunmuş və ədəbiyyatda uçucu maddələrlə digər narkotik maddələrin bir-birinin istifadə olunmasını artırması ilə əlaqədar sübutlar mövcuddur. Narkotik maddələrdən istifadə olunması siqaretlə başlayır, bunu alkoqol, daha sonra uçucu maddələr (tiner,bali, və s.) və yaxud marixuana izləyir. Daha sonra isə daha ağır təsirli maddələrdən istifadə etməyə başlayırlar. Alkoqol və narkotikdən istifadə əsasən inkişaf etmiş ölkələrdə getdikcə artmış, son illər ərzində isə gənclər arasında bu artım sürətlənmiş, istifadə insanların orta yaş həddi azalmış və 11-12 yaşa qədər düşmüşdür. Türkiyə də bu təmayül getdikcə yüksəliş göstərir[3].

---

[1] Lari, S. M. M. İslam və Qərb Mədəniyyəti. İran- Qum, s.70

[2] Dökmeci, G., Saltık A. Dökmeci İ. Edirne merkezinde halkın uyuşturucu ve non-medikal ilaç kullanımı epidemiyolojisi: Trakya Üniversitesi Tıp Fakültesi Dergisi, 5, 6, 7 (Bileşik Sayı), 1988-1990, s. 94

[3] Ağırakça A. Şamil İslam Ansiklopedisi, C.VIII. Türkiye- İstanbul: 2000, s.133; Demirhan, H. Denizli ili, Tavas ilçe merkezinde yer alan ortaöğrenim öğrencilerinde sigara, alkol ve uçucu madde kullanımı. Yüksek Lisans Tezi.

Sadəcə Azərbaycan və Türkiyə yox, bütün dünya uzun müddətdən bəri bir fəlakətlə qarşı-qarşıyadır. Bu narkotik maddə təhlükəsidir. Bu təhlükə yoluxucu xəstəlik kimi bütün dünyanı əhatə edir. Bu xəstəliyə yoluxan şəxs ehtiyac duyduğu bir günlük dozanı pulsuz təmin etmək üçün bir çox gənci narkotik maddəyə qurşandırırlar. Yeni aludə olanlar başqalarını qurşandırır və bu fəlakət zənciri getdikcə yayılıb bütün dünyanı əhatə edir.

**Problemin işlənmə dərəcəsi**. Təhlil olunan problem keçmişdə və indiki dövrdə də olduqca aktual olduğu üçün bu sahəyə demək olar ki, bir çox elm nümayəndələri diqqət yetirmişlər. Tarixçilər, filosoflar, şairlər, iqtisadçılar, psixoloqlar, həkimlər, siyasətçilər bu problemlə bağlı müxtəlif nəzəriyyələr və ideyaları irəli sürmüşlər. *Aparılan tədqiqatları bir neçə qrupa bölmək olar:*

**1.** Narkotik maddələrin təsnifatı, səciyyəvi xüsusiyyətlərinin izah edilməsi, onların insan orqanizminə təsiri barədə yazan tədqiqatçılar sırasında H.Demirhan, M.Soysaldı, E.Turhan, M. Beyazyürek, T.T. Şatır, Ö.Özmen, Ö. Köknel, Y.Günal, E.İzgü, A.N. Babaoğlu, Ş.Kurt, N.Berkem, M.İpek, T.Uzbay, S.D.Məmmədova, E.H. Həsənov, A.Mağiyev, Q.Məmmədov, Qərb tədqiqatçıları sırasında Malluris Drobna, John Bell, Carl D.Çambers, E. Mutlu, və digər tədqiqatçıların adlarını çəkmək olar.

**2.** Sosial problemlər, gənclərin cəmiyyətdə statusu, müasir cəmiyyətdə qloballaşma prosesləri ilə bağlı məsələlərin araşdırılması ilə Vincent N. John Stimson Parrillo, James William Coleman, Anna Leon Guerrero, İ.Başkurt, Q.Y.Abbasova,T. Musayeva, Mary J. Gander, Harry W. Gardiner, Kağıtçıbaşı Ç., James M. Henslin, Vincent N.Parillo, Ruth Wallance, Alison Wolf, O.S.Ray, İ.Ə. Rüstəmov, S.D. Məmmədova, L.M. Cabbarova, və bir çox Türkiyə, Azəbaycan və digər ölkə və bölgələrin alimləri məşğul olmuşlar.

---

Pamukkale Üni. Sağlık Bilimler Enstitüsü, Halk Sağlığı A.B.D. Türkiye-Denizli,1999, s.1; Soysaldı, M. Gençliğimizi tehdit eden zararlı alışkanlıklar: Sigara, alkol ve uyuşturucu. // E-Journal Of New World Sciences Academy, Volume: 2, Number: 2 Article Number: C0006, s. 80-100, 2007, s.88

3. Tədris müəssisələrində gənclərdə hər hansı bir şəkildə narkotik maddələrə meyllərin olması, bunun sosial nəticələri və aradan qaldırılması yolları barədə öz fikrini bildirənlər sırasında F.İbrahimov,R.Məmmədli, M.Talıbova,E. Rəhimova, O.Vəlimədova, Ə.S. Piriyev, E.İ.Şəfiyeva, E.U. Yıldız, A.Ünlü, U.Evcin, Mahmut Tezcan, M. Mangır, N. Aral, G. Boran, D.Çakır, A.S. Fridman, K.Glassman, və s. mütəxəssislərin adları çəkilməlidir.

4. Narkotik maddələrin, alkoqolun, siqarətlərin qəbulu nəticəsində yaşanan halların tədqiqi, müalicəsi, sosial nəticələrin araşdırılması ilə məşğul olanlar sırasında J.R. Knight, H. Wechsler, M.Kuo, E.R.Seibring, P.G.Floyd, M.Sungur, K.E. Leonard, G. Hacıoğlu, G. Yaprak, K.Ögel, S. Birsöz, İ. Balcıoğlu, Y. Abanoz, S.C. Əliyev, A. M. Xasməmmədzadə, Andres Lehtmets, E.İ. Şəfiyeva, B. Zahidov, kimi alimlərin adlarını qeyd etmək olar.

Dissertasiyada gətirilən mənbələrin zənginliyindən, burada əhatə olunan məsələlərinin müxtəlifliyi və mürəkkəbliyindən belə bir qənaətə gəlmək olar ki, narkotik maddələrin istər sosial problemlər sırasında, istərsə də gənclərin həyatında oynadığı mənfi roluna görə tutduğu yer vacib və böyükdür. Məsələnin elmi və nəzəri əhəmiyyəti elə elmi ictimaiyyətin, dövlət qurumların ona olan marağına səbəb olmuşdur. Məsələnin müxtəlif istiqamətlərdə elmi cəhətdən öyrənilməsinə baxmayaraq sürətlə dəyişən sosial şərait insan, cəmiyyət qarşısında yeni-yeni tələbləri irəli sürür. Bunu nəzərə alaraq hesab edirik ki, *dissertasiyanın başlığında göstərilən problem öz əhəmiyyətini itirməyib və dərindən öyrənilməsinə layiqdir.*

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqat obyekti cəmiyyətin mühüm sosial qrupunu təşkil edən gənclər, predmeti isə gənclərdə narkotik asılılıq problemidir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədi gənclərdə narkotik asılılıq probleminin sosial hadisə kimi araşdırılmasıdır. Məqsədə nail olmaq üçün aşağıdakı vəzifələri irəli sürürük:

- Dünyada narkotik maddələrin istehsalı, yayılması və istehlakı tarixinin araşdırılması;

- Narkotik maddələrin istifadəsində dünya ölkələri və ayrıca götürülmüş tədqiqat Türkiyə üzrə göstəricilərin araşdırılması və təsnifatı;

- Dünyada narkotik maddələrin istehsalı və istehlakı üzərində nəzarət tədbirlərin təhlili və gələcəkdə bu sahədə vəziyyətin proqnozlaşdırılması;

- Gənclər arasında narkotik maddələrin istifadəsi ilə bağlı profilaktik tədbirlərin həyata keçirilməsi, narkomanların müalicəsi və narkotik maddələrin qadağan edilməsi tədbirləri kompleksinin yaranması ilə bağlı görülən işlərin təhlili;

- Türkiyədə gənclərin narkotik bağlılığı ilə əlaqədar həyata keçirilən dövlət proqramlarının tədqiqi;

- Gənclərdə narkotik maddələrin qəbulu nəticəsində yaranan psixi və fiziki pozuntuların tədqiqi;

- *Xüsusi olaraq Türkiyənin Van şəhərində gənclər arasında narkotiklərin qəbulu ilə bağlı vəziyyətin araşdırılması və vəziyyəti aradan qaldırması üçün lazımi tədbirlərin həyata keçirilməsi yollarının qeyd edilməsi.*

**Tədqiqatın metodları və metodologiyası**. İrəli sürdüyümüz tədqiqat strategiyasına və modelinə uyğun olaraq dissertasiya işində irəli sürdüyümüz məqsəd və vəzifələrə nail olmaq üçün ilk növbədə ümumelmi metodlara müraciət etdik. Söhbət sistem-struktur təhlildən, tarixi-məntiqi yanaşmadan, statistik təhlildən gedir. Əlavə olaraq tədqiqata geniş faktiki məlumatlar da cəlb olunmuşdur (statistika, müxtəlif alimlər və elmi qruplar tərəfindən həyata keçirilmiş tədqiqatların nəticələri, özümüzün əldə etdiyimiz konkret sosioloji tədqiqatların nəticələri). Araşdırma zamanı bu və ya digər tədqiqatçıların mövqelərinə biz öz münasibətimizi bildirmişik.

**Tədqiqatın elmi-nəzəri əhəmiyyəti**. İlk növbədə narkotik maddələrin geniş təsnifatının verilməsini qeyd etmək lazımdır. Bu təsnifatda göstərilən hər bir növ narkotik maddənin mənşəyi, kimyəvi tərkibi, fizioloji təsiri xüsusiyyətləri, yayılması arealı, istifadə tərzi, törətdiyi fəsadları göstərilmişdir.

Türkiyədə narkotik vasitələrin istehsalı, başqa ölkələrdən gətirilməsi, yayılması və istifadəsi ilə bağlı vəziyyət hüquqi, sosial-

siyasi, tibbi və mənəvi baxımından tədqiq edilmişdir. Gənclərin sağlam həyat tərzinə aid tövsiyələr (təlim, tərbiyə, idarəetmə qurumları, o cümlədən təhsil sistemində, ailə tərbiyəsi ilə bağlı) irəli sürülmüşdür. Van şəhərində gənclərin narkotik maddələrinə aid vəziyyətin təhlil əsasında leqal və qeyrileqal narkotiklərin qəbulu ilə bağlı ümumiləşdirmələr aparılmış, narkotik və alkoqol qəbulu ilə bağlı dünyada formalaşan maliyyə mexanizmi təhlil olunmuşdur.

Dünyada narkotiklərlə bağlı mübarizə modelləri nəzərdən keçirilmiş, Türkiyə və Azərbaycan dövlətlərinin burada özünəməxsusluq təyin edilmişlərdir. Gəldiyimiz qənaətlərdən biri də narkotiklərin qəbulu üçün müqəddəm şərtlər sırasında tütünün və alkoqolun qəbul olunmasıdır. Bunu ilk növbədə gənclərin tütünə və alkoqola qurşanmasında görmək olar. Əldə etdiyimiz tədqiqat nəticələri də bunu təsdiqləyir.

Problemin həllinə əngəllərdən biri də narkotik maddələrin əlçatanlığıdır. Digər əngəl – bunların istehlakına təhrikedici tədbirlərin, psixoloji proqramların həyata keçirilməsidir. İnformasiya əfsanələri və yalanları mafiya tərəfindən maliyyələşdirilir ki, öz qazancını əldə edə bilsinlər. Məsələ dövlət və şəxsi səviyyələrdə həll olunmalıdır, bunun üçün də bir çox stereotipləri, köhnə təsəvvürləri və vərdişləri aradan qaldırmaq lazımdır. Yeni insan obrazı, yeni həyat tərzi, yeni dünya nizamı formalaşmalıdır ki, bu bəla ilə birdəfəlik qurtara bilək.

**Tədqiqatın praktik əhəmiyyəti**. Narkotik maddə mövzusu ilə əlaqədar danışmamaq və mübahisə etməmək bu faktın gərək Azərbaycanda və gərəksə də Türkiyədə vacib bir problem olması reallığını dəyişdirmir. Həmçinin, bu hal gələcəkdə həll edilməsi mümkün olmayan təhlükələrə gətirib çıxara bilər. Yeniyetmə və gənclərin narkotik maddələrdən istifadə etməsi və bununla əlaqədar davranış cəmiyyətin gələcəyi nöqteyi-nəzərindən vacib sosial problemdir. Gənclik narkotik maddələri sınama baxımından ən təhlükəli dövr kimi qəbul edilir. Bu səbəbdən alkoqol və narkotik maddə istifadəsilə əlaqədar fəaliyyətlərin əksəriyyəti daha müdafiəsiz dövr olan yeniyetməlik və gəncliyə yönəlir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi:** Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın giriş hissəsi 9 səhifə, birinci fəsli 58 səhifə, ikinci fəsli 58 səhifə, üçüncü fəsli 28 səhifə, nəticə hissəsi 3 səhifə, ədəbiyyat hissəsi 15 səhifə, əlavə hissəsi 6 səhifədən ibarətdir. Dissertasiya işi ümumilikdə 185 səhifə, 283 887 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**"Dünyada və Türkiyədə narkotik maddələr və onların təsirləri xüsusiyyətləri"** adlı birinci fəsildə narkotikdən istifadə, bununla əlaqədar problemlərin tarixi-məntiqi icmalı verilir. Bu fəslin birinci altfəsli olan **"Tarixi prosesdə asılılığı yaradan maddələr"** adlı bölməsində göstərilir ki, insan cəmiyyətində tarix boyu qəbilə ayinlərində və yeniyetməliyə keçid mərasimlərində dua, rəqs, aclıq-susuzluq, sosial və emosional izolyasiya, yuxu pozğunluğu, eşitmə stimulları, meditasiya, hipnotik təlqinlər kimi metodlara əlavə olaraq "dəyişdirilmiş şüur" deyilən, gündəlik şüur səviyyələrdən daha fərqli sahələrə çatmaq üçün tiryək, halussinogen bitkilər, tiryəkin növləri, koka bitkisinin yarpaqları kimi psixoaktiv maddələr istifadə edilirdi. Dissertasiya işində dünyanın müxtəlif bölgələrində bir çox bitkilərin, maddələrin istifadəsinə aid konkret faktlar gətirilir. Belə bir nəticə çıxarılır ki, narkotikdən istifadə və asılılığa aid məlumatlar yazılı tarıxın yaranmasına gedib çıxır. Bu maddələr ilk olaraq tibbi məqsədlər üçün, yəni ağrı və ya əzablardan xilas olma, dini və əyləncə məqsədli, xəbərdarlıq halını dəyişdirmə kimi fərqli məqsədlərlə müxtəlif cəmiyyətlər tərəfindən istifadə edilmişdir.

Tarixdə psixoaktiv preparatların olmadığı heç bir mədəniyyət olmamışdır. İnsan əsrlər boyu psixi durumunda dəyişikliyə gətirib çıxaran psixoaktiv maddələri sınamış və sui-istifadə etmişdir. Çünki tarixi prosesdə psixoaktiv maddələrdən istifadə edilməsinə aid məlumatlar təhlil edilən zaman bu məsələdəki narahatlıq və həyəcanın heç də yeni olmayıb, fərd və cəmiyyətin sağlamlığı

üzərindəki mənfi təsirlərdən həmin vaxt xəbərdar olunmuş və qarşısının alınmasına, ictimai sanksiyalar və ənənələr ilə nəzarət altına alınmağa cəhd göstərildiyi müşahidə olunur[1].

Narkotikdən istifadə və asılılığın tarixi Anadolu ərazisində də qədim dövrə təsadüf edən problemdir. E.ə 4000-ci illərdən bəri Şumerlər və onlardan sonra yaranan bir çox mədəniyyət buralarda başda kənəvir və tiryək olmaqla narkotik və stimulyativ maddələri əldə etmək üçün bir çox bitkini yetişdirmiş, müalicə, əyləncə və s. məqsədlərlə istifadə edilmişdir. Türklər Anadoluya gələndən sonra yerli xalqdan etdiyi tiryək və kenevir əkinçiliyini öyrənib davam etdirmiş və Sənaye İnqilabından sonra onların ticarətinin əhəmiyyət kəsb etməsilə da dünyanın ən vacib tiryək istehsalçısı mövqeyinə gəlmişlər[2].

Hal-hazırda beynəlxalq platformalarda ən vacib qeyri-qanuni tiryək istehsalı bölgələri kimi: *Qızıl Üçbucaq bölgəsi* – Burmis, Laos, Tayland sərhədlərinin birləşdiri ərazi, *Qızıl Ay bölgəsi* (Qızıl Aypara)– Əfqanıstan, İran, Pakistan ölkələrinin olduğu bölgələrdir. *Mərkəzi Amerika bölgəsi* – Peru, Kolumbiya və Meksikadır[3].

Dünyada baş verən qloballaşma prosesi, yüksək mənfəət meylləri və asılılığın artması, siyasi struktur dəyişiklikləri narkotik maddə probleminin ölkələrin sərhədlərini aşaraq beynəlxalq və lokal

---

[1] Uçar Altınay C. Şizofren hastalarda alkol madde kullanım bozukluğu komorbiditesi ve komorbiditenin hastalık gidişine etkileri. Uzmanlık Tezi. Türkiye- İstanbul, 2005, s.8; Andres Lehtmets, Jörg Pont. Həbsxanada səhiyyə və tibb etikası (Prison healthcare and medical ethics). Məhbusların sağlamlığına cavabdeh olan səhiyyə işçiləri və digər həbsxana əməkdaşları üçün vəsait. Avropa Şurası, aprel 2017-ci il Azərbaycan dilində nəşr edilmişdir. 2017, s.59

[2] Işık M., Erdal H., Türkiye'nin madde kullanımı ve bağımlılığı ile mücadele politikasının değerlendirilmesi ve yeni bir model önerilmesi. // International Periodical For The Languages, Literature And History Of Turkish Or Turkic Volume 10/2 Winter- 2015, p. 465.

[3] Mağiyev, A. Qara Kabus. (Narkotik və Narkomanya) -Bakı, 2013, s. 6, 47; Akbulut, İ. Ülkemizde uyuşturucu maddeler sorunu. İHFM. C.55. Sayı: 3, s. 111-142, Türkiye- İstanbul: 1997, s.118; Ünüvar N. Madde kullanımı ve bağımlılığı ile kaçakçılığının önlenmesi alanlarında tespit edilen sorunlar ve çözüm önerileri. TBMM Meclis Araştırma Komisyonu Raporu. Türkiye- Ankara, 2008, s.65

cinayətkarlıq halı almışdır. Türkiyə coğrafi mövqeyi ilə *Balkan Marşrutunda* iştirak edir. Türkiyə, içində olduğu coğrafi mövqeyi istiqamətiylə *"Balkan Rotası"* yolunda olub çox həssas bir yerə malikdir. Bu məsələdə Türkiyə, Qərbi Avropa mənşəli ara kimyəvi maddələri və Şərqi Avropa mənşəli amfetamin və captagon maddələri ilə Əfqanıstan mənşəli tiryək və onun növlərinin alverinin tranzit ölçüsü ilə Belçika və Hollandiya başda olmaqla Qərbi Avropa mənşəli ekstazi və Cənubi Amerika mənşəli kokain alverinin təsirinə məruz qalır [1]. Azərbaycan isə Avropa və Asiyanın kəsişməsində yerləşir və Narkomaniya və Narkotiklərin Qanunsuz Dövriyyəsi ilə Mübarizə üzrə Dövlət Komissiyasının rəyinə görə respublika Əfqanıstan-trans-Rusiya və trans-Azərbaycan-Gürcüstan-Avropa narkotiklərin daşınması marşrutu yolu üzərində yerləşir [2].

Aparılan bir tədqiqat zamanı aşkar edilmişdir ki, yuxarı sinifə keçdikcə qızların ömür boyu ən azı bir dəfə alkoqoldan istifadə miqyası oğlanlara yaxınlaşır. Həyata keçirilən bir tədqiqatda asılılığı olan qadınların 37.3%-nin alkoqoldan istifadə etdiyi, orta məktəb (lisəy) şagirdləri ilə aparılan başqa bir tədqiqatda axır bir ay ərzində ən azı bir dəfə alkoqoldan istifadə edən qız şagirdlərin nisbətinin 8% olduğu və onların ömrü boyunca 72.6%-nin alkoqoldan istifadə etdikləri aşkar edilmişdir[3]. Narkotik maddələrdən istifadə cəmiyyətdə getdikcə yayılam problem olmaqla yanaşı qadın və

---

[1] Ünüvar N. Madde kullanımı ve bağımlılığı ile kaçakçılığının önlenmesi alanlarında tespit edilen sorunlar ve çözüm önerileri. TBMM Meclis Araştırma Komisyonu Raporu. Türkiye- Ankara, 2008, s.371

[2] Malluris Drobna & Kristofors. İİV və QİÇS Azərbaycanda: Sosial Mədəni Yanaşma. Azərbaycan -Bakı: Adiloğlu nəşriyat, 2005, 60 s. // www.unesco.org/culture/aids

[3] Akgül A., Akyay İ. "Uyuşturucu maddeler ve sınıraşan uyuşturucu kaçakçılığı", İçinde Oğuzhan Ömer Demir ve Bahadır Küçükuysal Der., sınıraşan organize suçlar. Türkiye- Ankara: Adalet Yayıncılık, 2011, s.35-62; Ögel K, Tamar D, Evren C, Çakmak D. İstanbul'da lise gençleri arasında sigara, alkol ve madde kullanım yaygınlığı. Klinik Psikiyatri, C.3, s. 242-245, 2000, c.242-245

kişilər arasındakı fərq azalır və hamiləliyi olan qadınlarda bu nisbətin getdikcə artdığı ifadə edilir[1].

Bu altfəsilin **“Tarixi prosesdə narkotik maddələr və onların fərdlərə təsiri”** adlı bölməsində narkotik vasitələrin geniş təsnifatı verilir və onların insanlara təsiri xüsusiyyətləri təyin olunur. Həmin təsir qruplar üzrə göstərilir.

Bu altfəsildə **“Dünyada və Türkiyədə narkotik asılılığı ilə əlaqədar fəaliyyət”** məsələ də araşdırılır. Burada bu sosial hadisənin cərəyan etməsi mərhələləri araşdırılır, müasir durum qiymətləndirilir. Göstərilir ki, narkotik maddələrin şüurlu şəkildə sui-istifadə edilməsi ilk dəfə 1092-1276-ci illərdə mərkəzi Alamut qalası olan Haşşaşin Dövlətində müşahidə edilmişdir. Ümumiyətlə aydın olmuşdur ki, narkotik maddələrlə mübarizə nəsilləri hədələyən məsələ kimi uzun müddətdir ki bütün ölkələrin ən prioritet hədəflərindən biri olmuşdur. Ölkələr *narkotikdən istifadə edilməsini sosial, özü də gənclər problemi kimi* qəbul olundu. Türkiyədə indiyə qədər gənc əhali arasında narkotikdən istifadənin geniş yayılmasına istiqamətlənmiş ölkə miqyasını əhatə edən tədqiqat aparılmamışdır.

2007-ci ildə aparılan başqa bir tədqiqat Türkiyə Böyük Millət Məclisi (TBMM) tərəfindən TUİK tərəfindən seçilmiş 60 şəhərdəki 261 məktəbdə (130 rəsmi, 131 özəl) təhsil alan 26.009 şagirdlə aparılmışdır. Bu tədqiqata əsasən siqaretdən istifadəyə davam edən şagirdlərin nisbəti 15.6%, son bir ay ərzində ən azı bir dəfə spirtli içki qəbul edənlərin nisbəti 16%, son üç ay ərzində narkotik və stimulyativ maddələrdən istifadə edənlərin nisbəti isə 2.9% olaraq aşkar edilmişdir[2].

---

[1] Bütün günü yalnız narkotik haqqında fikirləşirsən- Ok. NARKOTIKE YOX DEYEK. 106 s. // https://ok.ru/group/52821281865836/topics ; İzci, F., Bilici, R., Gebelerde madde kullanımı: Görülme sıklığı ve etkileri. Bağımlılık Dergisi. C.XVI, Sayı: 1. s. 1-9, 2015, s.5

[2] TBMM Araştırma Raporu 2007. Çocuklarda ve gençlerde artan şiddet eğilimi ile okullarda meydana gelen olayların araştırılarak alınması gereken önlemlerin belirlenmesi amacıyla kurulan TBMM Araştırma Komisyonu Raporu-2007, s. 30, 156; Demirhan, H. Denizli ili, Tavas ilçe merkezinde yer alan ortaöğrenim öğrencilerinde sigara, alkol ve uçucu madde kullanımı. Yüksek Lisans Tezi.

Məlumdur ki, dünya ölkələrində geniş yayılma ilə əlaqədar tədqiqatların nəticələri təhlil olunduğu zaman kişilərin narkotikdən istifadə nisbətinin qadınlardan daha yüksək olduğu müşahidə edilir. Qadınların yaş qruplarına əsasən har hansısa bir narkotik maddədən istifadə nisbətinə nəzər yetirildiyi zaman 15-24 yaş aralığında 1.6%, 25-34 yaş aralığında 2,5%, 35-44 yaş aralığında 2.5%, 45-54 yaş aralığıında 1.6%, 55-64 yaş aralığında isə 3.1% nisbətində narkotikdən istifadə edildiyini görmüş olarıq. Məktəblərdə tiryəkdən istifadə olunması nisbəti 0.3% olaraq hesablanmışdır. Avropa və dünyadakı narkotik maddələrdən istifadə nisbəti ilə müqayisə olunduğu zaman Türkiyədə bu halın daha aşağı olduğu müşahidə edilir. Bu hal ailə və ictimai münasibətlərin sıx olmasına, narkotik təklifinin daha mənfəətli bazarları hədəf götürməsinə və hüquq-mühafizə orqanlarının effektiv tədbirlərinə və tutulma səylərinə əsaslanır[1]. Azərbaycanda isə narkomanları əsas qrupu 21-30 (65,5%) yaşlılardır[2]. Xüsusi olaraq Azərbaycanda da narkotikdən asılılılıq miqyası göstərilir. Vurğulanır ki, narkotiklərin qəbulu ən çox küçə uşaqları və tüfeyli həyat sürənlər arasında yayılmışdır. Gənclər böyüklərə nisbətən narkotiklərin qəbulu qarşısında daha zəifdirlər, ona görə ki, onları əhatə edən ətraf mühitin təsirinə tez düşürlər. Hal-hazırda Azərbaycanda narkomaniya problemi ölkədə əhalinin sağlamlığına, iqtisadiyyat və sosial sahədə, qayda-qanuna ciddi təhlükə meydana gətirir[3]. Azərbaycan müvafiq beynəlxalq sənədlərə

---

Pamukkale Üni. Sağlık Bilimler Enstitüsü, Halk Sağlığı A.B.D. Türkiye-Denizli,1999, s. 17

[1] TUBİM Madde Kullanım Yaygınlığı, 2012, s.12, 56, 61. http://www.kom.gov.tr

[2] Malluris Drobna & Kristofors. İİV və QİÇS Azərbaycanda: Sosial Mədəni Yanaşma. Azərbaycan -Bakı: Adiloğlu nəşriyat, 2005, s. 18 // www.unesco.org/culture/aids

[3] Gənclər arasında narkomaniya halları və QİÇS-in profilaktikası. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi. Gənclərin Problemləri Üzrə Elmi Araşdırmalar Mərkəzi. 31-03-2014, s. 5. http://gencalim.az

və təşəbbüslərə qoşulmuşdur. Bu sahədə qətiyyətli mübarizənin təmin edilməsi məqsədi ilə xüsusi dövlət proqramları qəbul olunur[1].

Ənənəvi cəmiyyətlərdən müasir və sekulyar cəmiyyət formasına keçidin, ailə strukturundakı tənəzzülün, şəhər həyatının sosial-iqtisadi təzyiqinin də bu prosesdə əhəmiyyətli faktor olması qəbul edilir. Dövrümüzdə əhəmiyyətli bir sosial problem olan narkotikdən istifadə və ondan asılılıq getdikcə daha çox insan arasında heroin, morfin, tiryəkdən tiner və yapışqan iyləməyə qədər bir çox növü ilə yayılmaqda davam edir[2].

Cəmiyyətlərin sosial struktur və mədəniyyətləri ilə narkotik maddələrdən istifadə arasında yaxın bir əlaqə mövcuddur. Müxtəlif cəmiyyətlərdə psixotrop və narkotik maddələrlə əlaqədar *"submədəniyyətlər"* formalaşmışdır.

Bir-birindən uzaq mədəniyyətlərdə fərqli formalarda müxtəlif məqsədlərlə istifadə edilən təsirli narkotik maddələrin müxtəlif istehsal və istifadə üsulları vaxt keçdikcə ticarət, müharibə və miqrasiya ilə dünyaya yayılmışdır[3]. Narkotiki yandıraraq dumanına məruz qalma hadisəsi Amerika qitəsindən bütün dünyaya yayılmış, maddələrin inyeksiya vasitəsilə beynə ən sürətli və ən yüksək konsentrasiya ilə yeridilməsi isə XIX əsrdəki texnoloji inkişaf nəticəsində formalaşıb yayılmışdır.

Psixoaktiv maddələri ənənəvi şəkildə kişilər qadınlardan daha çox istifadə etsə də, qadınlar hər sahədə sosial həyata daxil olub bərabərliyi qazandıqca, xüsusilə, inkişaf etmiş cəmiyyətlərdə bu fərq getdikcə aradan qalxır.

---

[1] Azərbaycan Respublikası, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə Üzrə Dövlət Komissiyası. Azərbaycan Respublikasında Narkotiklərə Nəzarət Sahəsində 2015-Ci İl Üçün Ölkə Məruzəsi (Natıonal Annual Report On Drug Control 2015), BAKI, 2016, s.9, 11

[2] Malluris Drobna & Kristofors. İİV və QİÇS Azərbaycanda: Sosial Mədəni Yanaşma. Azərbaycan -Bakı: Adiloğlu nəşriyat, 2005, s.16-17. // www.unesco.org/culture/aids; İçli, T. Uyuşturucu madde bağımlıları ile sosyolojik bir çalışma. H.Ü. Edebiyat Fakültesi Dergisi, 2.2, s. 77-85, 1984, s.77

[3] Işık, M. Madde Kullanımı ve stratejik iletişim. Türkiye-Ankara: SAGE Yayıncılık, 2013, s.16

Daha bir altfəsil **“Narkotik maddələrin sui-istifadəsi sosial proseslərə təsir edən faktor kimi”** adlanır.

Bu faktorlar sırasında aşağıdakılar göstərilir:

- Səhiyyə işçilərinin peşələrindən sui-istifadə etmələri;
- Müharibələrin (əskərləri gücləndirmək, düşmənin hərbi qüvvəsini və xalqını zəiflətmək) oynadığı rollar;
- Dövlət maraqlarında oynadığı rol (məsələn, tiryək müharibələri);
- Sənayenin tiryəki kəşf etməsi və başqa məsələlər.

Konkret misallar əsasında göstərilir ki, *narkotik asılılıq*, demək olar ki, bütün cəmiyyətlərdə dərman asılılığından qaynaqlanmış, dərmanlardan asılılıq isə əvvəlcə XIX əsrdə Avropa və ABŞ-da vacib bir problem kimi meydana gəlmiş, 1805-ci ildə tiryəkdən morfin, 1989-ci ildə isə heroin əldə edilmişdir [1].

Qərb ölkələrində gənclərin XX əsrin 70-ci illərdində yeni həyat fəlsəfəsi axtarmağa başladıqları əsnada ABŞ-dakı gənclər yeni həyat tərzi və fəlsəfi düşüncə çərçivəsində narkotikdən istifadə etməyi seçirdilər. Bu axtarışın məhsulu və Uzaq Şərq fəlsəfəsinin təsiri ilə amerikalı gənclər arasında *“Kannabis”* və *“LSD”* istifadəsi özünə yer tapmışdır [2]. Dissertasiyanın bu bölməsində faktlar əsasında İngiltərə, Almaniya, Fransada, bir sıra digər Avropa ölkələrində sintetik narkotik maddələrin istehsal edilməsi göstərilir.

Osmanlı və Türkiye dövründəki vəziyyətlə bağlı göstərilir ki, tarixən burada narkotik mədəniyyətinin mövcud olmuşdur. Bir sıra tarixi faktlar əsasında göstərilir ki, narkotik maddələr burada həm istehsale dilmiş, həm də müxtəlif məqsədlərlə istifadəyə verilmişdir.

---

[1] Nağiyev A. Qara Kabus. (Narkotik və Narkomanya) -Bakı, 2013, s. 2; Sadock Bj. Maddeye bağlı bozukluklar. “Kaplan & Sadock’s Comprehensive Textbook Of Psychiatry”, 8.Baskı. Editörlər: Aydın H, Bozkurt A. s.15, 1137-1318. Türkiye-İstanbul: Güneş Kitabevi; 1998- 2007, s.398-399

[2] Sevil, H T. Uyuşturucu Bağımlılığı Tanımlar- Sorunlar- Çözümler. Türkiye-Ankara: Sabev Yayınları, 1998, s. 17-18

Türkiyədə ən çox yayılan və istifadə edilən zərərli maddələrdən biri həşişdir [1].

Faktorlar sırasında daha bir neçəsi göstərilir:

- Mafiya faktoru, hansı ki qanlı toqquşmaların, insan tələfatının, dövlət çevrilişlərinin və siyasi qətllərin maliyyə mənbəyidir; BMT-nin məlumatlarına əsasən dövrümüzdə narkotik maddə iqtisadiyyatı dünya ticarətinin 8%-ni təşkil edir[2].

- Dövlət hakimiyyətini əlində saxlayan şəxslərin oynadığı rol. Göstərilir ki, dünyada tiryək və heroin qaçaqmalçılığında siyasi toxunulmazlığı olanlarla, bəzi diplomatik pasportlu insanlar böyük rol oynayır.

- Yük maşınları və internetin son vaxtlar oynadıqları rol;

- Hippi axını və mədəniyyəti, hansı ki narkotikdən sui-istifadə edilməsi və asılılığın yayılmasında mühüm rol oynamışdır;

- Dini inanclar və narkotik maddələrdən asılılıq (burada söhbət dini və sosial rituallarda bir çox psixoaktiv maddələrdən istifadə edilməsindən gedir).

Birinci fəslin sonuncu, **"Narkotik asılılığı ilə əlaqədar həyata keçirilən profilaktik tədbirlər"** adlanan altfəsildə həm preventiv proqramlar, həm də bilavasilə narkomaniya xəstəliyinə tutulan şəxslərlə iş barədə bəhs olunur. Burada preventiv tədbirlərin üç səviyyəsindən və bir sıra metodlardan bəhs olunur (imtina etdirmə, məlumatlandırma, fərdi bacarıqları artırmaq və s.).

XX əsrin 60-cı illərinin sonu - 70-ci illərin əvvəllərində Avropa və ABŞ-da asılılığı olan şəxslərin sayının çoxalması və asılıların cəmiyyət üçün etdiyi problemlər nəzərə alınaraq sosial reabilitasiya proqramları və asılılıq müalicəsi üzərində fəaliyyətlərə üstünlük vermişdir. XX əsrin 70-ci illərinin axırlarına doğru isə narkotikdən istifadə, asılılıq, asılılığın müalicəsi, cəza ədalət sistemi nöqteyi-

---

[1] Əliyev, S.C., Hacıyeva, H.M., Mikayılzadə N.C. Tibbi Biliklərin Əsasları. Elmi red.F.Y.Talıbov. Azərbaycan Tibb Universitetinin Nəşriyyatı, BAKI, 2004, s.381

[2] Ergül E., Türkiye'de uyuşturucu ve uyarıcı maddeler suç politikası. Adalet Bakanlığı Uluslararası Hukuk ve Dış İlişkiler Genel Müdür Yardımcısı. s. 11 http://www.gumrukkontrolor. org.

nəzərindən asılı və asılılıq kimi anlayışları əhatə edən siyasət və strategiyalarda müxtəlifliklər yaranmağa başlamışdır[1].

1971-ci il tarixli BMT Psixotrop Maddələr Haqqında Müqaviləsinə əsasən sui-istifadə edilən və insan psixikasına təsir göstərən dərmanların nəzarət altına alınması, psixotrop təsiri olan dərmanların yalnız həkim resepti ilə istifadə edilməsinin təmin edilməsi, bu müqavilədə ifadə edilən xüsusiyyətlərin üzvlərin daxili qanunvericiliyinda cinayətkarlıq hesab edilməsi yönümündə lazımi hüquqi tənzimləmələrin həyata keçirilməsinin təminatı haqqında qərarlar qəbul edilmişdir[2]. Digər beynəlxalq sənədlər də qəbul olunmuşdur.

Türkiyədə Narkotik asılılığı ilə əlaqədar həyata keçirilən profilaktik tədbirlərlə əlaqədar göstərilir ki, Türkiyədə xaşxaş becərilməsi, tiryək istehsalı və bu maddələri istifadə edənlərlə təmin edənlərə aid ilk tənzimləmə Fateh Sultan Mehmet dövründə reallaşmışdır. 1938-1971-ci illər arasında Türkiyə dünya qanuni tiryək bazarının 50-55%-nə malik olmuşdur. XX əsrin 70-ci illərində bütün dünya Türkiyəni qeyri-qanuni tiryək transportundan məsul tutmağa, günahlandırmağa başlamış və 1971-ci ildə tiryək istehsalı hökümət tərəfindən tamamilə qadağan olunmuşdur. Bu qadağa, yeganə gəlir qaynağı tiryək istehsalı olan 1,5 milyon insana təsir göstərmiş və torpaqlarında tiryəkdən başqa heç bir məhsulun becərilə bilməməsi onları yoxsullaşdırmışdır. 1974-cü ildə isə bu qadağa ləğv edilmiş, Xaşxaş təsərrüfatı nəzarət altına alınaraq əkin sahələri Nazirlər Kabineti tərəfindən müəyyən edilmişdir[3].

Azərbaycanda da narkotik asılılığı ilə əlaqədar həyata keçirilən profilaktik tədbirlər nəzərdən keçirilmişdir.

---

[1] Ünüvar N. Madde kullanımı ve bağımlılığı ile kaçakçılığının önlenmesi alanlarında tespit edilen sorunlar ve çözüm önerileri. TBMM Meclis Araştırma Komisyonu Raporu. Türkiye- Ankara, 2008, s.55

[2] Emniyet Genel Müdürlüğü, Kaçakçılık ve Organize Suçlarla Mücadele Daire Başkanlığı, 2000, s. 3-4

[3] Ünüvar N. Madde kullanımı ve bağımlılığı ile kaçakçılığının önlenmesi alanlarında tespit edilen sorunlar ve çözüm önerileri. TBMM Meclis Araştırma Komisyonu Raporu. Türkiye- Ankara, 2008, s.58

Narkotik maddə alveri ilə mübarizədə aktiv rol oynayaraq regional və beynəlxalq əməkdaşlığa dəstək verirlər. Bunlar narkotik maddə alveri çərçivəsində beynəlxalq təşkilatlarla əhəmiyyətli əməkdaşlıq fəaliyyətləri gerçəkləşdirirlər.

Beynəlxalq müqavilələrin Türkiyə və Azəbaycan qanunvericiliyindəki yerləri qiymətləndirilir, onlara münasibət bildirilir. Göstərilir ki, 1988-ci il müqaviləsi bu gün beynəlxalq mübarizədə qəbul olunan ən son müqavilədir. Bu müqavilə Vyanada 25 Noyabr – 20 Dekabr 1998-ci il tarixində BMT İqtisadi və Sosial Şurası tərəfindən yığılan narkotik və psixotrop maddələr alverinə qarşı müqavilənin qəbul edilməsinə aid BMT Konfransının 19 Dekabr 1988-ci il tarixli 8 saylı İclasında "Narkotik və Psixotrop Maddə Alverinə Qarşı Birləşmiş Millətlər Müqaviləsi" olaraq qəbul edilmişdir[1]. Türkiyə və Azərbaycanın həmin müqavilələr çərçivəsində gördüyü işlər qeyd olunur.

**"Gənclər tərəfindən narkotiklərin istifadəsi ilə bağlı nəzəriyyələr"** adlı ikinci fəslinin birinci altfəslində "**GƏNCLƏRDƏ narkotik asılılıq məsələsi ilə bağlı əsas anlayışlar və tariflər"** problemi nəzərdən keçirilir. İlk növbədə gəncliklə əlaqədar anlayış və təriflər təhlil edilir.

*Gənclik*, orta hesabla on altı və iyirmi beş yaş aralığına təsadüf edən dövrdür[2].

Burada həm də aparıcı kateqoriya olan *narkotik, stimulyator və psixotrop maddə* anlayışlarının elmi tərifləri gətirilir [3], narkotikin beynəlxalq hüquqi və texniki tənzimləmələrə əsasən tərifləri nəzərdən keçirilir.

*Psixoaktiv maddə:* Xalq arasında narkotik kimi də ifadə olunan *alkoqol, kannabis, heroin, kokain, amfetaminlər, tiner, tütün* kimi

---

[1] Özmen, Ö. Uyuşturucu veya uyarıcı madde suçları.Yüksek Lisans Tezi. Türkiye- İstanbul, 2009, s.31, 33

[2] Turhan, E.Üniversite Öğrencilerinde Madde Kullanımı,Şiddet ve Bazı Psikolojik Özellikler. Tacettin İnandı, Cahit Özerb, Sabahat Akoğlu. Türkiye Halk Sağlığı Dergisi; 9(1) 33. 2011, s.34

[3] Beyazyürek, M., Şatır, T. T. Madde kullanım bozuklukları: Balıklı Rum Hastanesi Vakfı. Psikiyatri Dünyası, 4: 50-56, Türkiye- İstanbul, 2000, s. 50-51

başqa istifadə sahələri olsa belə insanlar tərəfindən fiziki, psixi və fizioloji olaraq bəzi təsirlərini yaşamaq üçün istifadə olunan fiziki, psixi və ictimai ölçülərdə əhəmiyyətli zərərləri olan agentlərdir [1].

Bu tədqiqat işində “narkotik” və ya “narkotik maddə” anlayışı əvəzinə *“Keyidici/stimulyativ maddə”* və yaxud sadəcə *“narkotik maddə”* terminləri istifadə edilmişdir. Bu terminlərə üstünlük verilməsinin ən vacib səbəbi asılılıq edən maddələrin keyitmə xüsusiyyətləri ilə yanaşı stimulyativ xüsusiyətlərinin də mövcud olması olmuşdur. Həmçinin, bu maddələrin ilk dəfə istifadə olunması zamanı qəbul edilən dozadan asılı olaraq keyidici xüsusiyyətlərindən daha çox stimulyativ xüsusiyyəti ön plandadır. Buna görə ilk öncə keyidici yox, stimulyativ (öforizan) təsirlərinin olması səbəbində sui-istifadə olunan maddələri stimulyator əvəzinə narkotik kimi tərif etmək elmi cəhətdən yanlış olacağı üçün, həm narkotik, həm də stimulyativ maddə terminlərini özünə daxil edən *“narkotik/maddə”* anlayışından istifadə etmək elmi cəhətdən daha düzgün hesab olunmuşdur[2].

Narkotik maddələri kateqoriyalaşdırılması daim həyata keçirilir. Həm də narkotik və narkotik asılılığının DSM-IV təsnifatına əsasən diaqnostik meyarlarının təyin edilməsi barədə məlumat verilir.

*Narkotikdən asılılıq,* dərman xüsusiyyətinə malik bir maddənin beyinə təsir göstərməsindən qaynaqlanan, maddənin psixotrop təsirlərini hiss etmək və ya yoxluğundan qaynaqlanan narahatlıqdan xilas olmaq üçün mütəmadi və ya dövri şəkildə maddəni qəbul etmək istəyi və bəzi bihevioral pozğunluqlarla xarakterizə edilən beyin xəstəliyi kimi tərif edilir[3]. Hal-hazırda narkotikdən istifadə probleminin DSM-IV təsnifatına əsasən diaqnostik meyarları,

---

[1] Işık, M. Madde Kullanımı ve stratejik iletişim. Türkiye-Ankara: SAGE Yayıncılık, 2013, s. 4

[2] Işık, M. Madde Kullanımı ve stratejik iletişim. Türkiye-Ankara: SAGE Yayıncılık, 2013, s.5

[3] Bekar, E Ö. Bağımlılık yapıcı madde kullanımı olan hemşireler ve hemşirelik hizmetleri yönetiminin yaklaşımı: Bir literatür incelemesi. Sağlık ve Hemşirelik Yönetimi Dergisi. Sayı/ Number: 1 Cilt / Volume: 1 Yıl / Year: 2014, s. 43-44

narkotikdən asılılığın DSM-IV təsnifatına əsasən diaqnostik meyarları da təyin edilmişdir.

Dissertasiyanın bu bölməsində narkotiklərin kategoriyalara bölünməsi xüsusiyyətləri də nəzərdən keçirilir.

İkinci fəslin növbəti altfəsil **"Sosial problemlə əlaqədar anlayış və təriflər"** adlanır. Göstərilir ki, "insanşünaslıq" elmi bütövlükdə özündə bir sıra sərhəd fənlərini - fəlsəfi antropologiya, sosioloji fenomenologiya, psixofiziologiya və təbabətin sintezi kimi bir sıra insani və sosial problemlərini araşdırmaq bacarığını özündə əks etdirən bir elmdir. Başqa sözlə, müasir fənlərarası tədqiqatların nəticələrindən çıxış edərək biz daha az itkilərlə (maddi və mənəvi) insanla bağlı bilikləri əldə edə bilərik[1].

Müasir cəmiyyət postsənayə cəmiyyəti kimi səciyyələnir. Burada zaman daxilində müxtəlif dəyişikliklər baş vermiş, forma və funksiyaları dəyişmişdir. Cəmiyyətin dəyişməsilə birgə sosial problemlər də dəyişmişdir. *Aclıq, yoxsulluq, qeyri-bərabərlik, zorakılıq və çoxalan cinayətkarlıq nisbəti dövrümüzün ən vacib* sosial problemləridir[2] ***Sosial problemlər*** əsasən, cəmiyyətin böyük hissəsi tərəfindən qəribə qarşılanan davamlılığına reaksiya göstərilən ictimai tərkibli problemlərdir. Hər bir cəmiyyətin özünə xas sosial problemləri var və onların öhdəsindən gəlmək üçün müxtəlif strategiyalar inkişaf etdirər.

Sosial problemlər analiz edilərkən sosial patologiya, dəyərlərin qarşıdurması, deviant davranış, təşkilati böhran, sosial təhlil və s. anlayışlara tez-tez müraciət olunur[3]. Dissertasiyada fərdi və sosial problemlər fərqləndirilir, ekspertlərin rəyi əsasında onların təsnifatı

---

[1] Musayeva, T. Həyat Sosiologiyası. Sosioloji və Sosial Psixoloji Problemlər . Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. [III buraxılış). Elmi red. R. C. Əzimova. Bakı: TƏKNUR, 2014, s. 8

[2] Güçlü, S., Öztürk, A., Baygal, A., vd. Sosyal problemler sosyolojisi: Dünyadan ve Türkiye'- den Örnekler. Bölüm: 1, Editör: Nurşen Adak vd., Türkiye- Ankara: Desen Ofset, 2009, s.16

[3] Güçlü, S., Öztürk, A., Baygal, A., vd. Sosyal problemler sosyolojisi: Dünyadan ve Türkiye'- den Örnekler. Bölüm: 1, Editör: Nurşen Adak vd., Türkiye- Ankara: Desen Ofset, 2009, s.21

verilir. *Fərdi problemlər*, fərdin yer aldığı əhatəsi və başqa şəxslərlə olan münasibətlərində yaşadığı problemlərdir. *İctimai problemlər* isə tam şəkildə tarixi cəmiyyət, ictimai və tarixi həyatın bütün formalarını təşkil etmək məqsədilə bir-birinə təsir göstərən əhatə və dairələrlə əlaqədar problemlərdir[1]

Sosial problemlərlə əlaqədar əsas anlayışlar sırasında dəyər qarşıdurması, deviant davranış, təşkilati böhranlar, sosial böhranlar, cinayətkarlıq, zorakılıq təhlil edilmişdir.

Burada həm də sosial problemlərə dair sosioloji yanaşmalar nəzərdən keçirilmişdir. Göstərilir ki, sosial problemlərin həllində ilk addım onların təyin olunmasıdır. Sosial problemlərin təyin olunması, ictimai dəyər və normalara bağlı olması ilə nisbi haldır. Yəni hər hansı bir şərt və ya vəziyyətin müəyyən bir cəmiyyətdə sosial problem kimi qəbul edilməsi və daha sonra problemin gələcəyinə aid proqnozlar çərçivəsində həll təklifləri gətirə bilməsidir.

Növbəti altfəsil **"Gənclik dövrünün sosial problemlərindən biri olan narkotik istifadəsinə aid nəzəriyyələr (yanaşmalar)"** adlanır. Narkotikdən istifadə bir çox nəzəriyyələr vasitəsilə izah edilə bilən nəzəriyyələrdir. Bunlardan *öyrənmə nəzəriyyəsinə* əsaslanan modellər, psixodinamik nəzəriyyələr və transteorik nəzəriyyələr *psixoloji nəzəriyyələr* çərçivəsində iştirak edir, *çoxlu risk faktoru nəzəriyyəsi* ilə *ekoloji nəzəriyyələr* narkotikdən istifadə problemini izah etməyə çalışmışdır. Son dövrlərdə sosial elmlər sahəsində geniş marağa səbəb olan Sosial sərmayə (Social capital) nəzəriyyəsi də narkotikdən istifadə problemi və risk faktorlarını tədqiq edir [2]. Bunlar sırasında interaktiv nəzəriyyə (interaktionistlər narkotikdən istifadəni qrup təsiri vasitəsilə formalaşan sosiallaşma və təkrar sosiallaşma dövründə öyrənilən davranış forması kimi nəzərdən

---

[1] Wallace, A. Ruth, Wolf Alison. Çağdaş sosyoloji kuramları. Çev.Leyla Elburuz, M. Rami Ayas, Türkiye- İzmir: Punto Yayıncılık, 2004, s. 153

[2] Ünlü, A., Evcin, U. 2008 ve 2010 yılları arasında istanbul bağcılar ilçesinde gençler arasında madde kullanım yaygınlığı, risk ve koruma faktörlerinin değerlendirilmesi. Anadolu Üni. Sosyal Bilimler Dergisi, Cilt: 14 - Sayı: 3, (127-140). Türkiye- İstanbul, 2014, s. 28

keçirirlər, burada submədəniyyət formalaşır). *Funksional yanaşmaya* əsasən, insanların niyə narkotik istifadə etmələri barədə əsas səbəblərdən daha çox hər hansı bir cəmiyyətdə narkotik istifadəsini təşviq edən ictimai normalar və şərtlərə diqqət yönəldir. Sürətli şəkildə baş verən sosial dəyişiklik sosial problemlərin yaranmasında əhəmiyyətli rol oynayır.*Konflikt nəzəriyyəsi*: konflikt nəzəriyyəçiləri, narkotik problemini həl etməyi araşdırarkən *dəyərlərin qarşıdurması* üzərində dayanırlar. *Psixoloji nəzəriyyə* nümayəndələri sırasında Freyd, Adler, Otto Rank, Mendozanın mövqeləri bildirilir.

*Dinamik nəzəriyyə* (narkotik asılılığın dinamikaları məcburiyyət (kompülsiyon), relaps (yenə geri qayıtmaq) və inkar şəklində tərif edilir. Bunların hər biri psixoloji, bioloji və sosial vasitələrlər meydana gələ bilər [1].

*Bihevioral (Davranışçı) nəzəriyyə*: *Biheviorist modelə* əsasən asılılığı tanımaq, başa düşmək, ona müdaxilə edə bilmək üçün, ancaq narkotikdən istifadə etmək davranışını başladan və davam etdirən fərdi və ekoloji faktorların anlaşılması və maddədən istifadə davranışının düzgün analizi ilə mümkündür[2].

*Ekzistensial nəzəriyyə*: Bunlara əsasən, asılılığı olan şəxslər narkotik qəbul etdikləri əsnada oynadıqları rolun özlərini bəyənmədikləri, həqiqi mənlikdən kənarda fərqli bir rol olduğunun fərz edilməsidir[3].

Daha sonra burada *mərhələ nəzəriyyəsi, sosial öyrənmə nəzəriyyəsi*, o cümlədən *Sosial Öyrənmə modeli, bioloji nəzəriyyə, koqnitiv-bihevioral nəzəriyyə, sosial-mədəni nəzəriyyə, ekoloji model (nəzəriyyə), çoxlu risk faktoru nəzəriyyəsi* təhlil olunmuşdur. Bu təhlil müəllifin qarşıya qoyduğu məqsədin konseptual həllində istifadə olunmuşdur.

---

[1] Fenichel, O. Çeviren: Tuncer, S. Nevrozların psikanalitik teorisi. Türkiye-Bornova/ İzmir: Ege Üniversitesi Matbaası, 1974, s. 96

[2] Sungur, M. Alkol bağımlılığı tedavisinin biçimlendirilmesinde nükslerin önemi ve nüksleri önleme teknikleri. Türk Psikiyatri Dergisi, 2(3), p. 171-178, 1991.

[3] Mangır, M., Aral N., Boran, G. Yurtlarda kalan üniversite öğrencilerinin sigara ve alkol kullanımlarının incelenmesi. Ankara Üniversitesi Ziraat Fakültesi Yayınları,1992, s.28

Bu fəslin növbəti altfəsli **"Narkotikdən istifadə faktorları (səbəbləri) gənclik dövrünün sosial problemlərindən biri kimi"** adlanır. Burada göstərilir ki, narkotikin sui-istifadəsinə sadəcə bir risk faktoru yox, birdən artıq faktor təsir göstərə bilər. Narkotikdən istifadə edilməsinin başlanğıcında, sui-istifadə olunmasında və ya asılılığında bir sıra risk faktoru mövcud olub onlar arasında şəxsiyyət, sosial, iqtisadi, irsi, bioloji və s. amillər sayıla bilər. İnsanın vacib bir risk faktoru daşıması xəstəliyin meydana gəlmə potensialını artırır. Fərdi risk faktorlarının fərqli kombinasiyası bu faktorların şiddət və təbiətindən yaranan müxtəlif şiddətin mənfi nəticələrin yaranmasına gətirib çıxarır. Burada sosial-mədəni və ekoloji faktorlar, ailə faktoru, *psixoloji faktorlar*, dost qrupu faktoru, şəxsiyyət faktoru, narkotik maddənin əlçatarlılığı faktoru, imitasiya faktoru, narazılıq və başıboşluq faktoru, mənəvi boşluq faktoru, biogenetik faktor, narkotik maddəyə aid reklam faktoru, ticari mənfəət faktoru, digər xəstəliklər faktoru, digər faktorlar bütün təəssüratı ilə nəzərdən keçirilir, narkotik maddədən istifadədə xüsusi submədəniyyətin formalaşması vurğulanır.

Dissetasiyanın bu bölməsinin sonuncu altfəsil **"Narkotik maddələrdən istifadə və onun nəticəsində yaranan çətinliklər gənclərin sosial promlemi kimi"** adlanır. Burada göstərilir ki, gənclik problemi kimi xarakterizə edilən asılılıq ən böyük sosial problemlərdən biridir. Uzun müddətdir ki, bütün *Dünyanın Problemi* halına gələn narkotik maddələrdən istifadə Azərbaycan və Türkiyə baxımından da getdikcə əhəmiyyətli bir problem meydana gətirməkdə olub tibb, psixologiya, hüquqşünaslıq və kriminologiyada əsas tədqiqat və müdaxilə sahələrindən biridir. Asılılığı olan şəxslərin iş qüvvəsindən məhrum edilməsi, yüksək müalicə xərcləri və sosial təminatlarının olmaması kimi faktorlar problemin dövlətə xərcləri artırır. Narkotik maddələrdən istifadə, ilk öncə şəxsi sosial və sağlamlıq problemi kimi ortaya çıxır. Bir müddətdən sonra

narkotikdən sui-istifadə edilməsi asılılığa çevrilir və daha sonra sosial, iqtisadi və məhkəmə problemi şəklində ərsəyə gəlir[1].

Türkiyə əhalisinin altıda birini, Azərbaycan əhalisinin də 29,7 faizini təşkil təşkil edən gənclərin öz həllini tapmamış sosial-iqtisadi, sosializasiya və təhsil durumu ilə əlaqədar problemi mövcuddur. Bu sosiallaşma prosesində yaranan maneələr, qarşıdurmalar gəncin psixi durumuna təsir göstərir, narahatlıq və həyəcanını artırır. Gənc şəxs bu prosesdə zorakılıq vasitəsilə cəmiyyətə üsyankarlıq edir və ya psixoaktiv maddələrdən istifadə etməyə başlayır. Onların gənclər tərəfindən geniş şəkildə istifadə olunması, nəticələr baxımından mühüm sosial problem və xalq sağlamlığı problemini təşkil edir [2].

*Narkotik maddələrdən istifadə və asılılıqla* bağlı tədqiqatçıların bəziləri professional cinayətkarlıqlar, cibgirlik və adam öldürmədə olduğu kimi *narkotik maddə cinayətkarlığında* da *submədəniyyətin* mövcud olmasından bəhs edirlər. Marvin E.Volfanq, Franko Ferracuti *The Subculture of Violence* adlı əsərləri ilə ən güclü mütəxəssislərdən hesab olunurlar. *Submədəniyyətlə* bağlı tədqiqat aparanlar narkotikdən istifadə edilməsində öyrənmə müddəti, imitasiya və etiketləmənin varlığından bəhs edirlər. Burada narkotikdən istifadə edilməsinin fərdi və ictimai nəticələri geniş şərh olunur. Bu nəticələr sırasında ailə, iş, qanun sahələri göstərilir (cinayətkarlıq, yol qəzaları və s.), sağlamlıq, xəstəlik və ölümlə əlaqədar problemləri, yəni vurğulanır ki, narkotik maddə asılılığı ondan istifadə edən şəxslərin fərdi sağlamlığı, psixi durumları və ailələrinə çox vaxt ağır təsir göstərir.

Sonuncu, üçüncü fəsildə **"Gənclərin narkotik maddələrdən istifadə etməsi nəticəsində yaranan sosial problemlər (tədqiqatın nəticələri)"** adlanır. Bu fəslin birinci altfəslində ("**Gənclərin**

---

[1] Ünlü A., Evcin U. İstanbul'da liseli gençler arasındaki madde kullanım yaygınlığı ve demografik faktörlerin etkileri. Araştırma Makalesi. Literatür Sempozyum, 1(2):2-11, Türkiye- İstanbul-2014, s. 2

[2] Demirhan, H. Denizli ili, Tavas ilçe merkezinde yer alan ortaöğrenim öğrencilerinde sigara, alkol ve uçucu madde kullanımı. Yüksek Lisans Tezi. Pamukkale Üni. Sağlık Bilimler Enstitüsü, Halk Sağlığı A.B.D. Türkiye-Denizli,1999, s. 3-4

**narkotik maddələrdən istifadə etməsi ilə yaranan sosial problemlərin miqyası"**) Ögel və yoldaşlarının həyata keçirdikləri "İstanbuldakı 9-12-ci sinif şagirdləri arasında siqaret, alkoqol və narkotikdən istifadə miqyası" adlı tədqiqatda aşağıdaki nəticələr sübut edilmişdir[1]. Narkotikdən istifadə edilməsində Ankara şəhərinin birinci yerdə olduğunu bildirilir.

Tədqiqat işinin tətbiq sahəsi Van şəhəri ilə əlaqədar TBMM-nin 2008-ci il tədqiqatının xüsusi hesabatında (stasionarda müalicə qəbul edənlərin sayına görə) onuncu yerdə idi. Heroin istifadə edilməsinə görə müalicə edilən asılı şəxslərin şəhərlərə əsasən bölgüsü Qaziantep-Kilis 42%, Van-Hakkari 25%, Hatay 7%, Kayseri 4%, digər şəhərlər isə 20% təşkil edir. Uçucu maddələrdən istifadə edilməsi səbəbi ilə müalicə alan şəxslərin məskunlaşdıqları ərazilər Ankara 58%, Kayseri 10%, Yozqat 4%, Niğde 4%, Konya 3% şəklindədir[2].

*Van şəhəri ilə əlaqədar yuxarıda qeyd edilən məlumatlar tədqiqat işinin Türkiyənin Van şəhərində həyata keçirilməsinə üstünlük verilməsinin əsas səbəbi olmuşdur.*

Bu fəslin növbəti altfəsli **"Tədqiqatın metodları və vasitələri"** adlanır.

Bu tədqiqat məhdud tədqiqat metodu vasitəsilə Van şəhəri mərkəzində yerləşən üç rayondakı 25 orta məktəb (Lisey) şagirdlərinin narkotikdən istifadə etməsi və problemlərinin miqyasının aşkar edilməsinə istiqamətlənmiş 2015-2016-cı ilin ikinci yarımil dövrü mart ayında 10-cu və 12-ci sinif şagirdlərinə dərs vaxtı daxilində könüllülüyünə əsasən anket formalarının paylanıb cavablandırıldıqdan sonra toplanması formasında anket tətbiq edilmişdir. Tədqiqatda istifadə edilən anket forması Türkiyədə daha əvvəl bu məqsədlə istifadə edilən anket formalarında təşkil edilmiş

---

[1] Ögel K, Tamar D, Evren C, Çakmak D. İstanbul'da lise gençleri arasında sigara, alkol ve madde kullanım yaygınlığı. Klinik Psikiyatri, 3(4), s. 242-245, 2000.

[2] Ünüvar N. Madde kullanımı ve bağımlılığı ile kaçakçılığının önlenmesi alanlarında tespit edilen sorunlar ve çözüm önerileri. TBMM Meclis Araştırma Komisyonu Raporu. Türkiye- Ankara, 2008, s.144-146

Trakya Universitetinin Tibb fakültəsinə oxşar fəaliyyətdə istifadə edilmişdir. Van şəhərinin üç mərkəzi rayonundakı məktəblərdə aparılan anketə aid fəaliyyətdən qabaq Van valiliyi və Milli Təhsil Müdirliyi aidiyyatı komissiyasının təsdiq və dəstəyi alınmışdır. Tədqiqatda anket vasitəsilə toplanan məlumatlarla kainatın (sahəsi) narkotik asılılığı ilə bağlı təsviri həyata keçirilir.

Tədqiqata 10-cu və 12-ci sinif şagirdləri cəlb edilmişdir. Tədqiqatın nümunə çərçivəsini (sahəsi) təşkil Van şəhərinin mərkəzi üç rayonunda olan 64 məktəbin (lisey) 10-12-ci sinif şagirdlərinin ümümi sayı 15778 nəfərdən ibarət olmuşdur. Prosesə cəlb ediləcək 25 məktəbin 10-cu və 12-ci sinif şagirdlərinin ümumi sayı isə 7949 nəfər olmuşdur. Bu da 64 məktəbdə olan 10-cu və 12-ci sinif şagirdlərinin 50.4%-ni təşkil edir.

Nümunə çərçivəsinin böyüklüyü 3000 şagirdə əsasən müəyyən edilmiş və bu da Van şəhərinin mərkəzi üç rayonunda olan 64 məktəbin 10-12-ci sinif şagirdlərinin sayının təxminən 19%-u nisbətindədir. Bu nümunə çərçivəsinin böyüklüyü ilə 1%-dən 50%-ə qədər olan sıxlıqlar qəbul edilə bilən mütləq sərhədlər daxilində mövcuddur (power %90, təxmin edilən mütləq hədd 1%-den 50%-ə±5). Aparılan sənəd tədqiqatlarından əldə etdiyimin məlumatlar doğrultusunda bəzi şagirdlərin cavab verməmək, səhv alternativi işarələmək, şagirdlərin sayının gözlənilləndən daha az olması kimi faktorların 15% əhatəsində ola biləcəyi təxmin edilmiş və bu nisbət qəbul edilə bilən sıxlığı müəyyən edərək nümunə çərçivəsinin böyüklüyünü 3000 nəfər olaraq müəyyən edilmişdir. *Nümunə seçimində çoxpilləli seçmə üsulunda istifadə edilmişdir*[1]

Tədqiqat Van şəhərinin üç rayonunda Fənn liseyi, Anadolu liseyi və Peşə liseyi 3 kateqoriyadan ibarət 25 məktəb, 133 sinifdə (57 ədəd 10-cu sinif, 76 ədəd 12-ci sinif) aparılmışdır. Cəmi 2925 anket tətbiq edilmişdir. 75 anket isə tətbiq edilə bilməmişdir. 86 ədəd cavab verilməməsi, yanlış cavab qeyd etmə, tələ maddə olan

---

[1] Ögel K., Taner S., Eke C. Y. Onuncu sınıf öğrencileri arasında tütün, alkol ve madde kullanım yaygınlığı: İstanbul Örneklemi. Bağımlılık Dergisi, Cilt: 7, Sayı: 1, s. 18-23, 2006, s. 19 www.bagimlilik.net

Zopinolu qeyd edənlər isə 25 nəfərdən ibarət olmuş və ümumilikdə 186 anket dəyərləndirilə bilməmişdir (6.2%). Tədqiqata 14 Peşə (İmam Hatip, Sənaye, İncəsənət və s.), 10 Anadolu, Bir Fənn liseyi cəlb edilmişdir.

Anketlər doldurulduqdan sonra nəticələrin statistik qiymətləndirilməsində SPSS 22.0 paket proqramından istifadə edilmiş, təsviri təhlillər üçün "$\chi^2$ (İks kvadratı) (Pearson Chi-Square) statistik testin"dən istifadə olunmuşdur. Bütün statistikalar üçün əhəmiyyətlilik limiti $p<0,05$ olaraq qəbul edilmişdir[1].

Bu tədqiqatda anket vasitəsilə toplanan məlumatlara tədqiqat nümunəsinin (sahəsinin) narkotikdən istifadə edilməsi ilə bağlı təsəvvür oluşdurub şagirdlərin siqaret, alkoqol və narkotik maddələrdən istifadə etmə miqyasının sübut edilməsi, insanların narkotikdən istifadə etməsi ilə sosial problemlər yaşaması arasındakı əlaqələr tədqiq edilmişdir.

Üçüncü altfəsildə **("Tədqiqatın əhəmiyyəti, fərziyyələri (hipotezləri) və məqsədləri")** vurğulanır ki, *bu tədqiqat Van şəhərinin üç rayonunu təmsil edən ilk və yeganə əhatəli narkotik istifadəsinin miqyasının tədqiqi hesab olunur.* Van şəhəri mərkəzindəki üç rayonda narkotikdən istifadə edilməsinə dair aşağıdakı fərziyyələr irəli sürülmüşdür:

1- Qızlara nisbətən oğlanların narkotikdən istifadə etmə nisbəti daha yüksəkdir;

2- 10-cu sinif şagirdlərinə nəzərən 12-ci sinif şagirdləri narkotikdən daha çox istifadə edir;

3- Yuxarı qruplardakı şagirdlər digər gruplardakı məktəb şagirdlərinə nəzərən narkotikdən daha az istifadə edirlər;

4- Orta qrup liseyində təhsil alan gənclərə nisbətən aşağı qrup liseyində oxuyan gənclərin narkotikdən istifadə etmə halı daha azdır;

5- Digər liseylərə nisbətən ən yüksək narkotikdən istifadə halı aşağı qrup liseyində mövcuddur;

---

[1] Asan, Ö., Tıkır, B., Okay, İ. T., Göka, E. Bir AMATEM birimine başvuran alkol ve madde kullanım bozukluğu olan hastaların sosyodemografik ve klinik özellikleri. Bağımlılık Dergisi, Cilt: 16, Sayı: 1, s. 1-10, 2015, s. 3

6- Valideynlərin münasibətsiz, təzyiqçi-avtoritar və ya həddən artıq mühafizəkar olması, bu halların baş vermədiyi ailələrə nisbətən (ailənin mövqeyinə əsasən) şagirdlər narkotiklərdən daha çox istifadə edirlər.

7- Valideynləri tərəfindən fiziki zorakılığa məruz qalan gənclər narkotikdən daha çox istifadə edirlər.

8- Valideynlərin təhsil səviyyəsi və iqtisadi durumu yeniyetmə və gənclərin narkotikdən istifadə etmələrinə təsir göstərir;

9- Narkotikdən istifadə edən yeniyetmə və gənclərin məktəbdə davamsızlıq, hüquqi problem yaşaması və intizam cəza alma halı daha çox olur.

10- Narkotikdən istifadə edən gənclərin sosial problemləri (evdən qaçma, qanuni problemlər yaşama, məktəbdən kənar bandalara qoşulma, kəsici alətlər gəzdirmə və s.) daha çox mövcud olur.

Dissertasiya işinin sonuncu altfəsli **"Tədqiqatın nəticələri və təhlili"** adlanır.

Tədqiqatda iştirak edən 2814 şagirddən 36 nəfər (1.3%) cinsini qeyd etməmiş, digər 2778 şagirdin 1374-ü oğlan (49.5%), 1404-ü isə qızdan (50.5%) ibarət olmuşdur. Bu nisbətlər, Türkiyə 2016 siyahıyaalma ilə uyğun gəlir. Anket formasında 27-ci bənddə qeyd edilmiş suallarda 12 narkotik növü ümumi şəkildə *"Narkotik maddə"* olaraq ifadə edilmişdir. Bütün orta məktəb(lisey) şagirdlərindən 36 nəfər narkotiklə əlaqədar suallara cavab verməmişdir.

Cinsiyyətə əsasən ən azı bir dəfə narkotik maddələrdən istifadə nisbəti isə cəmi 2778 nəfərdən 552 oğlan (%19.9), 294 qız (%10.6) olmaq etibarilə, cəmi 846 nəfər aşkar edilmişdir(30.5%). Görülürki 1374 oğlandan 40,2%-i (552), 1403 qızdan isə 20,9%-i (294) narkotikdən istifadə etdiyini etiraf etmişdir. Oğlanların 59,8%-i (822), qızların isə 79,1%-i (1110) narkotikdən istifadə etmədiklərini bildirmişdir. Buna əsasən oğlanların narkotikdən istifadə etmək nisbəti qızlara nəzərən əhəmiyyətli dərəcədə yüksək olmuşdur ($p=0,000$).

Şagirdlərdən 858 nəfərin (30,5%) ən azı bir dəfə narkotik maddədən istifadə etdiyi, 1956 nəfərin (69,5%) isə istifadə etmədiyi

aşkar edilmişdir. Orta məktəb (lisey) şagirdləri ən azı bir dəfə zərərli maddədən istifadə edilməsinə görə kateqoriyalaşdırıldığı zaman siqaretdən istifadə edən 824 nəfər (29,3%), alkoqoldan istifadə edən 214 nəfər (7,6%), kannabisdən istifadə edən 100 nəfər (3,6%), ekstazidən istifadə edən 43 nəfər (1,5%), tinerdən istifadə edən 82 nəfər (2,9%), akinetondan istifadə edən 26 nəfər (0,9%), kokaindən istifadə edən 42 nəfər (1,5%), eroindən istifadə edən 36 nəfər (1,3%), amfetamindən istifadə edən 25 nəfər (0,9%), kaptaqondan istifadə edən 25 nəfər (0,9%), yaşıl reseptdən istifadə edən 32 nəfər (1,1%), digər maddələrdən istifadə edən 20 nəfər (0,7%) şagirdin mövcudluğu aşkar edilmişdir.

Sosial problemli davranışlarla narkotik maddələrdən istifadə nisbəti dəyərləndirildikdə, bütün sosial problemli davranışlarda bütün narkotik maddələrin istifadə nisbətində artım olduğu sübut olunmuşdur.

Tədqiqatın nəticələrini dəyərləndirən zaman həyat boyu ən azı bir dəfə narkotik maddədən istifadə ekstensivliyi: ardıcıllıqla ən çox istifadə olunan maddə siqaret (29,3%) və alkoqol (7,6%) şəklindədir. Bu ardıcıllığı maddələr olan kannabis (3,6%), tiner-bali (2,9%), ekstazi və kokain (1,5%), eroin (1,3%), yaşıl reseptli dərmanlar (1,1%), akineton və amfetamin ilə kaptaqon (0,9%) izləyir. *Türkiyənin bütün bölgələrində olduğu kimi Vanda da 1998-ci ildə Ögel və yoldaşlarının SAMAY ilə keçirdikləri tədqiqatda mövcud olan kannabisdən istifadə sıxlığı, mənim bu tədqiqatımda artmışdır.* Vandakı şagirdlərin həyatı boyu ən azı bir dəfə bütün maddələrdən istifadə etməsi Türkiyədə 1998-ci ili əhatə edən nəticələrlə müqayisə olunduqda daha az müəyyən edilmişdir.

Dissertasiyanın**"Nəticə və təkliflər"** bölməsində göstərilmişdir ki, bütün dünyada olduğu kimi Türkiyədə də *narkotikdən istifadə gənclik problemi kimi ifadə olunur. Narkotikdən istifadə problemi,* insanda yalnız fizioloji yox, sosial və psixoloji problemlərə də səbəb olur. Nəticə etibarilə meydana gələn problemlər yalnız narkotikdən istifadə edən şəxsə deyil, həmçinin, onun yaxın ətrafından başlayaraq bütün cəmiyyətə müxtəlif iqtisadi və hüquqi problemlər şəklində ziyan vurur. Qeyri-qanuni narkotik ticarəti, istehsalı, istehlakı və

bununla əlaqədar yaranan problemlər getdikçə artır. Narkotik aludəçiləri müntəzəm iş qüvvəsindən məhrum olduqları üçün bütün qeyri-qanuni yollara müraciət edə bilərlər. *Asılılığı olan şəxslər* narkotik maddələri və ya bununla əlaqədar maddi vəsaiti tapmaq bahasına müxtəlif cinayətkarlıqlar törətməklə yanaşı zorakılıq, müxtəlif cinayətlər, yol qəzaları, məktəb və iş fəaliyyətlərinə təsir göstərəcək hadisələrdə iştirak edirlər[1].

Tədqiqatlar göstərir ki, narkotik asılılığı inkişaf etməkdə olan ölkələrə daha çox təsir edir. Gənc əhalinin sayının çox olması və inkişaf etməkdə olan ölkə olduğuna görə narkotikdən asılılıq məsələsi Türkiyə üçün böyük əhəmiyyət kəsb edir. Tədqiqatlar Türkiyədə narkotik asılılığı miqyasının əhali sayına nisbətən daha sürətli artdığını göstərir[2].

Narkotikdən istifadə çox vaxt marağa görə ya da yoldaş özəntisi səbəbiylə başlayır və qısa müddət ərzində insan asılı hala gəlir və dost qruplarının təsiri ilə yayılmışdır. İlk öncə insanı reallıqlardan uzaqlaşdırıb trankvilizativ təsir göstərsə də sonrakı müddət ərzində fizioloji və psixoloji cəhətdən vacib, müalicəsi uzun və çətin bir vaxtda tamamlanan problemlərə səbəb olur. Getdikcə artan dozalarda narkotikin qəbul edilməsi bir çox insanın ölümünə gətirib çıxarır[3].

ABŞ və Avropa ilə müqayisə olunduqda Türkiyədə narkotik maddə problemi yüksək səviyyədə olmasa da sürətli şəkildə artmaqdadır.

***Bu tədqiqatda nəticə olaraq:***

---

[1] Studies About Drug Addiction In Turkey And In The World // АКТУАЛЬНІ ПРОБЛЕМИ ФІЛОСОФІЇ ТА СОЦІОЛОГІЇ İSSN 2410- 3071 Kiyev - 11/2016, s. 47-51

[2] Madde Kullanımı ve Neden Olduğu Sosyal Problemleri // Bakı Dövlət Universiteti İlahîyyat Fakültəsinin Elmi Məcmuəsi № 26 DEKABR (ARALIK) 2016, s. 207- 220

[3] Factors leadıng to addıctıon among youth. // Балканско научно обозрение том 4 ® **№** 1 (7) 2020, p. 68-71

- Lisey 12-ci sinif şagirdlərinin siqaret, alkoqol və kannabisdən istifadə etmə nisbətinin 10-cu sinif şagirdlərindən əhəmiyyətli dərəcədə yüksək olduğu muəyyən edilmişdir[1].

- Başda siqaret, alkoqol və kannabis olmaqla digər bütün narkotik maddələrdən istifadə nisbətlərinin oğlanlarda qızlara nisbətən daha yüksək olduğu aşkar edilmişdir[2].

- Yüksək gəlir səviyəsi olan ailələrdə siqaret və alkoqoldan istifadə hallarının daha çox baş verdiyi müəyyən edilmişdir.

- Ananın təhsil səviyyəsinin yüksək olmasının narkotik maddələrdən istifadə nisbətini əhəmiyyətli dərəcədə artırdığı aşkar edilmişdir.

- Valideynin uşağı ilə maraqlanmaması, lazımi dəstək göstərməməsi və fiziki zorakılıq göstərməsinin siqaret, alkoqol və digər narkotik maddələrdən istifadə nisbətindəki artımla əlaqəli olması aşkar edilmişdir.

- Liseyli şagirdlərdə sosial problemli davranışların olmasının (məktəbdən və evdən qaçma, intizam cəzası, kəsici, deşici silah gəzdirmə, bandaya üzv olma, hüquqi problemlər yaşama) siqaret, alkoqol və digər narkotik maddələrdən istifadə nisbətindəki artımla pararlel şəkildə getdiyi müəyyənləşdirilmişdir[3].

***Məsləhət olaraq:***

- Gənclərə istiqamətlənmiş müdafiə və tədbir fəaliyyətləri lisəyə başlanılan müddətdə daha çox tətbiq edilməli və gənclərin öz dostları ilə keçirdikləri vaxtı səmərəli dəyərləndirə biləcəkləri asudə vaxt tədbirlərinə daha çox fürsət verilərək siqaret, alkoqol və narkotik maddə istifadəsinin təhlükələri ilə bağlı maarifləndirmə

---

[1] Narkotikdən istifadə və cinayatkarlıq // BAKI AVRASÎYA ÜNİVERSÎTETİ Elmi-nəzəri jurnal Cild 6 No: 2 2017 (34) BAKI – 2017, s.41-49

[2] Van ili merkezindeki 10-12.sınıf öğrencilerinde narkotik madde kullanım yaygınlığı : ISSN 2717-7262 ISPEC Journal of Social Sciences & Humanities, Year 4/ 2020, Volume-4, Issue-3, p. 183-211

[3] Sosyal Bir Problem Olarak Gençler Arasında Narkotik Madde Kullanımı (Van İli Örneği) // İKSAD- İktisadi Kalkınma ve Sosyal Araştırmalar Derneği KONGRE TAM METİN KİTABI GAP ZİRVESİ ISBN-978-605-68528-3-1, Sayfa 25 İKTİSAD YAYINEVİ – 2018 Şanlıurfa s. 25- 38

genişləndirilməli, şagirdlərin özlərinin təşkil edəcəkləri sosial klublar daxilində yaşıdlar üçün təhsil şəraiti təmin olunmalıdır.

- Narkotik maddələrdən birinin istifadə edilməsi digər maddələrin də istifadə olunması təhlükəsi yaranır. Xüsusilə siqaret və alkoqol narkotik maddələrdən istifadəyə keçid mərhələsi olaraq dəyərləndirildiyindən üzərində dayanılması lazımdır.
- Sosial-iqtisadi şərtlərin yaxşılaşması narkotik maddələrdən istifadə olunmasında həm risk faktoru, həm də müdafiəçi olur. Gəncin yaşına uyğun iqtisadi resurslar təqdim olunmalı, nəzarət altında saxlanmalı, lazım olarsa məhdudlaşmalıdır.
- Müsbət ailə mövqeləri əsas əhəmiyyət kəsb etdiyi üçün valideyn-uşaq münasibətlərində sərhədləri və tarazlığı qorumağın əhəmiyyətilə əlaqədar ailə maariflәndirilməsinə üstünlük verilməlidir.
- Reklamların cəmiyyətə təsirini nəzərə alaraq istər reklamlar, istərsə də sosial proqramlara sponsor olan müəssisə və təşkilatların reklamlarına diqqət yetirilməlidir. Məsələn, pivə reklamları və s. olmaması yönündə ölkə miqyasında tədbirlər görülməli və onlara istiqamətlənmiş maarriflәndirmə planlaşdırılmalıdır.
- Narkotik maddələrlə əlaqədar ərzın və tələbatın azaldılması ilə müalicə və reabilitasiya imkanlarının artırılmasını əhatə edən üç ölçülü fəaliyyətin formalaşdırılmasıdır.
- Narkotik maddələrin ticarət və qaçaqçılığını nəzarətdə saxlamaq və ya aradan qaldırmaq üçün mövcud olan milli və beynəlxalq səviyyədə inkişaf planlarında məsələyə yer verilməli, bu mübarizə təşkilatları ilə həssaslıq və qərarlılıqla əməkdaşlıq qurulmalı və möhkəm koordinasiyalar edilməlidir.
- Bu tədqiqatda ən əhəmiyyətli nəticə sosial təsirlərin və zamanın narkotik maddələrdən istifadə kimi təhlükəli davranışlar üzərindəki mənfi və ya müsbət təsirlərinin aydınlaşdırılmasına verdiyi töhvədir.

**Dissertasiya işinin əsas məzmunu** müəllifin nəşr olunmuş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:

1- Dünyada ve Türkiye'de Madde ve Madde Kullanımının Tarihçesi // Azərbaycan Respublikasi Təhsil Nazirliyi Bakı Slavyan Universiteti, Elmi Əsərlər İctimai-siyasi elmlər seriyası №1 Bakı – 2015, s.48-64 (məqalə)

2- Gənclərdə 'Narkotik Maddə Submədənıyyəti' Sosial Problem Kimi // Azərbaycan Respublikası təhsil Nazirliyi Azərbaycan Respublikasının Təhsil İnstitutu ELMİ ƏSƏRLƏR cild 84, № 4, 2017 ISSN 2409-8817 Bakı, s. 203- 212 (məqalə)

3- Dünyada ve Türkiye'de Narkotık/Madde ve Madde Kullanım Problemi // Bakı Dövlət Universiteti İlahîyyat Fakültəsinin Elmi Məcmuəsi № 25 ÎYUN (HAZİRAN) 2016 Bakı, s. 137- 152 (məqalə)

4- Madde Kullanımı ve Neden Olduğu Sosyal Problemleri // Bakı Dövlət Universiteti İlahîyyat Fakültəsinin Elmi Məcmuəsi № 26 DEKABR (ARALIK) 2016, s. 207- 220 (məqalə)

5- Studies About Drug Addiction In Turkey And In The World // АКТУАЛЬНІ ПРОБЛЕМИ ФІЛОСОФІЇ ТА СОЦІОЛОГІЇ İSSN 2410- 3071 Kiyev - 11/2016, s. 47-51 (tezislər)

6- Narkotikdən istifadə və cinayatkarlıq // BAKI AVRASÎYA ÜNİVERSÎTETİ Elmi-nəzəri jurnal Cild 6 No: 2 2017 (34) BAKI – 2017, s.41-49 (məqalə)

7- "Narcotıc / Substance Use Between Young People As A Socıal Problem (Van Cıty Sample) // Vědecký a analytický časopis SOCIOLOGIE ČLOVĚKA № 3 2017 Praqa – 2017, s. 7-15 (məqalə)

8- Sosyal Bir Problem Olarak Gençler Arasında Narkotik Madde Kullanımı (Van İli Örneği) // İKSAD- İktisadi Kalkınma ve Sosyal Araştırmalar Derneği KONGRE TAM METİN KİTABI GAP ZİRVESİ ISBN-978-605-68528-3-1, Sayfa 25 İKTİSAD YAYINEVİ – 2018 Şanlıurfa s. 25- 38 (tezis)

9- Factors leadıng to addıctıon among youth. // Балканско научно обозрение том 4 ® **№** 1 (7) 2020, p. 68-71 (məqalə)

10- Van ili merkez üç ilçedeki 10-12.sınıf öğrencilerinde narkotik madde kullanımı. www.23april.org Issued: 29.04.2020 ISBN-978-625-7898-03-4. s.4-23 www.iksad.com www.iksadkongre.org (tezis)

11- Van ili merkezindeki 10-12.sınıf öğrencilerinde narkotik madde kullanım yaygınlığı: ISSN 2717-7262 ISPEC Journal of Social Sciences & Humanities, Year 4/ 2020, Volume-4, Issue-3, p. 183-211 | www.ispecjournal.org (məqalə)

12- Studıes about drug addıctıon ın turkey and ın the world. 23-24 грудня, м. Запоріжжя 2016, УДК 30(063), ББК 6я43, П 76 , ISBN 978-966-916-203-8 © Klasik Özel Üniversite, 2016, c. 105-111 (məqalə)